# FHN Dövlət Yanğın Nəzarəti Xidməti Qəbələdə regional seminar-müşavirə keçirmişdir

Ticarət müəssisələrində yanğın təhlükəsizliyi qaydalarının tələblərinin pozulmasının qarşısını almaq, bu sahənin işçilərini yanğın təhlükəsizliyi bilgiləri ilə maarifləndirmək məqsədilə Fövqəladə Hallar Nazirliyinin Dövlət Yanğın Nəzarəti Xidməti Qəbələ şəhərində seminar-müşavirə keçirmişdir.





Seminar-müşavirədə bölgədə fəaliyyət göstərən ticarət müəssisələrində yanğın təhlükəsizliyinin vəziyyəti müzakirə olunmuş, yanğın təhlükəsizliyi qaydalarının tələblərinə zidd halların qısa müddətdə aradan qaldırılması üçün tapşırıqlar verilmişdir.

Ticarət müəssisələrinin, anbar və bazaların nümayəndələrinin iştirak etdiyi seminar-müşavirədə obyekt rəhbərlərinin diqqətinə çatdırılmışdır ki, onlar yanğın təhlükəsizliyinin təmin olunmasına şəxsən məsuliyyət daşıyırlar. Seminar-müşavirədə ticarət müəssisələrinin bütün işçilərinin yanğın təhlükəszilliyi qaydalarını dəqiq bilmələri və qaydaları ciddi yerinə yetirmələri xüsusi olaraq vurğulanmışdır.

Seminar-müşavirədə ticarət müəssisələrində ərazinin, bina və otaqların saxlanılması və elektrik, havadəyişmə, isitmə, tüstü qurğularının isitismarı zamanı yanğın təhlükəsizliyi qaydalarının tələbləri, yanğın zamanı zəruri hərəkətlər və insanların təhlükəsizliyinin təmin edilməsi, yanğın texnikasının və rabitə vasitələrinin saxlanılması, ticarət müəssisləri, o cümlədən baza və anbarlarda ilkin yanğınsöndürmə vasitələrinin normaları haqda ətraflı söhbət açılmış, müvafiq maarifləndirmə işləri aparılmışdır.

Tədbirdə ticarət müəssisələrində yanğına qarşı su təchizatının vacibliyinə toxunularaq bildirilmişdir ki, su təchizatı ilə əlaqədar müvafiq normativ sənədlərin bütün tələblərinə ciddi əməl olunmalıdır.

Seminar-müşavirədə ticarət müəssisələrində yanğın təhlükəsizliyi qaydalarını təbliğ edən “Ticarət müəssisələrində yanğın təhlükəsizliyi” adlı video-stend nümayiş etdirilmiş, həmçinin Dövlət Yanğın Nəzarəti Xidməti tərəfindən hazırlanmış eyni adlı yaddaş kitabçası metodiki vəsait kimi yerlərdə yanğına qarşı təbliğat xarakterli işlərdə istifadə olunması üçün ticarət müəssisələrinin nümayəndələrinə paylanılmış, onların təklifləri dinlənilmiş, sualları cavablandırılmışdır.

Müşavirənin iş planı çərçivəsində şərti yanğın söndürülərək ilkin yanğınsöndürmə vasitələrinin tətbiq olunması, həmçinin təxliyyə qaydaları əyani şəkildə nümayiş etdirilmişdir.

**Qüdrət SƏMƏDOV.**
**Fotolar S. Umuyevindir.**

# 45 il təhsil ocağında

Soltannuxa kənd tam orta məktəbində hər il vaxtaşırı rəngarəng tədbirlər həyata keçirilir. Növbəti tədbir isə 65 illik ömrünün 45 ilini müəllimlik sənətinə bağlayan və bu dərs ilindən məktəbə, müəllim yoldaşlarına, dərs dediyi şagirdlərinə əlvida deyərək pensiyaya çıxan Mahmudzadə Elmira Şirəli qızına həsr olunmuşdu. Məktəb rəhbərliyi, illərlə dərs dediyi şagirdləri onu ümummməktəb tədbirinə dəvət etdilər. Bu məqsədlə məktəb rəhbərliyi, müəllim yoldaşları geniş bir proqram hazırladılar.

Tədbirdə bütün pedaqoji kollektiv, valideyn assosasiyasının üzvləri, kənd ictimaiyyətinin nümayəndələri, Elmira müəllimənin ailə üzvləri iştirak etdilər.

Şirin çay süfrəsi arxasında keçən tədbiri giriş sözü ilə məktəbin direktoru Həqiqət Rzayeva açdı və sözü dil-ədəbiyyat müəllimi, tədbirin aparıcısı Gülxar Həbibovaya verdi. Gülxar Həbibova tədbir iştirakçılarını salamladıqdan sonra Elmira Mahmudzadənin keçdiyi həyat yolu barədə danışdı.

Elmira müəllimə 1948-ci ildə ziyalı ailəsində anadan olmuş, orta məktəbi bitirdikdən sonra atasının peşə yolunu davam etdirmək məqsədilə Ağdaş Pedaqoji Texnikumuna daxil olaraq ibtidai sinif müəllimi ixtisasına yiyələnmişdir. Təyinatla 2 il Nohurqışlaq kənd tam orta məktəbində ixtisası üzrə müəllim işlədikdən sonra ailə vəziyyəti ilə əlaqədar həmin tam orta məktəbdən Soltannuxa kənd tam orta məktəbinə dəyişdirilmişdir. Bu məktəbdə 43 il işlədikdən sonra yaşa görə məktəbdən ayrılmalı, pensiyaya çıxmalı olmuşdur. Dərs dediyi illərdə həmişə işinə məsuliyyətlə yanaşmış, öz üzərində çalışmış, öyrətmək üçün daim öyrənmiş, şagirdlərinin gələcək uğurlu təhsili, tərbiyəsi üçün əlindən gələni əsirgəməmişdir. Onun yüzlərlə yetirməsi ali və orta ixtisas təhsili məktəblərinə daxil olaraq hazırda müəssisə və təşkilatlarda çalışır, rəhbər vəzifələrdə işləyirlər. Onların arasında elm adamları, dövlət məmurları, istehsalatda calışanlar da az deyildir.

E. Mahmudzadə yüksək təlim müvəfəqiyyətlərinə, ictimai fəaliyyətinə görə məktəbdə həmişə fərqlənmişdir. Bu da ona istər pedaqoji kollektiv arasında, istər valideynlər arasında, istərsə də şagirdləri arasında dərin hörmət və nüfuz qazandırmışdır. O, dəfələrlə ictimai fəallığına, qazandığı təlim uğurlarına görə məktəb rəhbərliyinin təşəkkürünə fəxri fərmanlarına layiq görülmüşdür. 1978-ci ildə isə fəal və qabaqcıl müəllim kimi Azərbaycan müəllimlərinin IV qurultayına nümayəndə seçilmiş və qurultayın iştirakçısı olmuşdur.

Tədbirdə məktəbin direktor müavinləri Şahid Quliyev, Səhrab Babayev, əvvəllər direktor işləmiş və hazırda Soltannuxa kənd inzibati ərazi nümayəndəsi vəzifəsində çalışan Roman Mustafayev, pensiyaçı müəllimlərdən Şərqiyə Səbzəliyeva, Marifə Osmanova, Qaragöz Dəmirova, müəllimlərdən Ramiz Yolçuyev, Sevil İsrəfilova, Sara Xəlilova, Aidə Kərimova, Leyla Mustafayeva, Hicran Babayeva, Aybəniz Əsgərova, keçmiş şagirdi Elşən Allahverdiyev və bir çox başqaları çıxış edərək E. Mahmudzadə haqqında xatirələrini danışmış, əmək fəaliyyəti barədə bir sıra məqamlara aydınlıq gətirmiş, onu ictimaiyyətçi müəllim, sədaqətli yoldaş və qayğıkeş bir ana kimi tanıdıqlarını söyləmişlər.

Kənd ziyalısı, şair Şakir Xəyal E. Mahmudzadəyə və ailə üzvlərinə həsr etdiyi şeirini oxumuş və bu əlamətdar gün münasibətilə onu təbrik etmişdir.

Şagirdlərdən Seyran, Səid, Cavid, Aysun, Çinarə, Nurcan, Aidə və başqaları müəllim haqqında şeirlər söyləməklə müəllimlərini təbrik etmişlər.

Sonda tədbirin səbəbkarına qiymətli hədiyyələr təqdim olunmuşdur.

**Günel MƏCNUNOVA,**
**məktəb uşaq birliyinin rəhbəri.**

## Futbol

# «Qəbələ» liderləri haqlayıb

Topaz Premyer Liqasında XV turun oyunları keçirildi. «Qəbələ», Bakıda «Rəvan» üzərində 1:0 hesablı qələbə qazanaraq xalını 29-a çatdırdı.

Turun digər oyunldarı isə belə yekunlaşmışdır: «Xəzər Lənkəran»—AZAL—1:1, «Simurq»—«Qarabağ»—0:0, «Sumqayıt»—«Neftçi»—1:2, «Bakı»—«İnter»— 0:1.

Turun cədvəli aşağıda dərc olunub.

**Miri RƏHİMOV.**

# Topaz Premyer Liqasının TƏQVİMİ

**XVI tur**
**8 dekabr (bazar)**

76. “İnter” (Bakı)—“Xəzər Lənkəran” (Lənkəran).
77. “Sumqayıt” (Sumqayıt)— “Bakı” (Bakı).
78. “Qarabağ” (Ağdam)—“Neftçi” (Bakı).
79. “Qəbələ” (Qəbələ)—“Simurq” (Zaqatala).
80. AZAL (Bakı)—“Rəvan” (Bakı).

**10—12 dekabr**
**XVII tur**
**14 dekabr (şənbə)**

81. “Simurq” (Zaqatala)—AZAL (Bakı).
82. “İnter” (Bakı)—“Sumqayıt” (Sumqayıt).

**15 dekabr (bazar)**

83. “Xəzər Lənkəran” (Lənkəran)—“Rəvan” (Bakı).
84. “Neftçi” (Bakı)—“Qəbələ” (Qəbələ).
85. “Bakı” (Bakı)—“Qarabağ” (Ağdam).

**XVIII tur**
**20 dekabr (cümə)**

86. “Xəzər Lənkəran” (Lənkəran—“Sumqayıt” (Sumqayıt).
87. “Qarabağ” (Ağdam)—“İnter” (Bakı).
88. “Qəbələ” (Qəbələ)—“Bakı” (Bakı).
89. AZAL (Bakı)—“Neftçi” (Bakı).
90. “Rəvan” (Bakı)—“Simurq” (Zaqatala).

Topaz Premyer Liqasının yarış cədvəli

| | Klublar | O | Q | H | M | T-F | X |
|---|---|---|---|---|---|---|---|
| 1 | Neftçi | 15 | 9 | 4 | 2 | 23-13 | 31 |
| 2 | Qarabağ | 15 | 8 | 6 | 1 | 25-8 | 30 |
| 3 | Qəbələ | 15 | 9 | 2 | 4 | 22-13 | 29 |
| 4 | İnter | 15 | 7 | 2 | 6 | 25-19 | 23 |
| 5 | Bakı | 15 | 6 | 3 | 6 | 25-17 | 21 |
| 6 | Simurq | 15 | 4 | 7 | 4 | 12-12 | 19 |
| 7 | Azal | 15 | 4 | 6 | 5 | 13-18 | 18 |
| 8 | Xəzər Lənkəran | 15 | 3 | 6 | 6 | 11-21 | 15 |
| 9 | Rəvan | 15 | 1 | 6 | 8 | 8-26 | 9 |
| 10 | Sumqayıt | 15 | 1 | 4 | 10 | 7-24 | 7 |